

# Milli birliyimiz uğurlarımızın rəhnidir

**_Azərbaycanda həyata keçirilən islahatların son illər geniş vüsət alması özünü bir daha büruzə verdi. Dövlət başçımızın son günlər bir-birinin ardınca imzaladığı fərman və sərəncamlar, ölkəmizdə vətəndaş rifahının daha da yüksəldilməsi, həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi həyata keçirilən siyasətin prioritet istiqamətlərindən birini təşkil edir. Son 18 ildə həyata keçirilən siyasi kursun əsas amillərindən biri, təbii ki, əhalinin güzəranının yaxşılaşdırılmasına istiqamətlənib. Bu günlərdə imzalanan fərman və sərəncamlar isə getdikcə geniş miqyas alan sosial islahatların növbəti mərhələsinə başlanılmasını təmin etdi. Bu islahatlar bir daha təsdiqlədi ki, Prezident İlham Əliyev verdiyi vədləri yerinə yetirən liderlərdəndir._**

Azərbaycanın bu gün ən islahatçı ölkələr sırasında qərarlaşması da islahatların zamanın və dövrün tələblərinə uyğun təkmilləşdirilməsinə əsaslanır. İslahatların bütün sahələri əhatə etməsi milli və siyasi həmrəylik sahəsində də özünü büruzə verir. Hələ 2018-ci ildə keçirilən prezident seçkilərində xalqın böyük etimadını qazanmış cənab İlham Əliyev seçkidən sonra andiçmə mərasimindəki nitqində yaxın vaxtlarda ölkədə siyasi, iqtisadi və mədəni sahələrdə əsaslı islahatların aparılacağı anonsunu vermişdi. Bunun nəticəsi olaraq, Prezident Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə iş şöbəsinin yaradılması bəzi partiyalarla yaranmış soyuq münasibətləri tədricən aradan qaldırdı. İqtidarla siyasi partiyalar arasında dialoqun intensiv xarakter alması, mütəmadi olaraq siyasi partiya liderləri ilə görüşlərin keçirilməsi, müzakirələrin aparılması, onların fikirlərinin, təkliflərinin dinlənilməsi siyasi həmrəyliyin möhkəmləndirilməsi istiqamətində atılan qətiyyətli addımlar oldu. Xalqın liderə olan inamı siyasi həmrəyliyə, milli birliyə zəmin yaratdı. Ermənistan üzərindəki tarixi qələbəmizin əsas amillərindən biri də siyasi həmrəylik və milli birlik oldu.

Ölkə başçısının qarşıda duran hədəflərə nail olmaqla bağlı qətiyyətli addımları bu gün bütün sahələrdə özünü doğruldur: "Biz bütün işləri ardıcıllıqla edirik və əgər son 17 illik tariximizə nəzər salsaq, görərik ki, qarşıya hədəflər qoyulurdu, hədəflər düzgün müəyyən edilirdi, biz bu hədəflərə çatırdıq və ondan sonra qarşımıza yeni hədəflər qoyurduq. Beləliklə, həm siyasi, həm iqtisadi sahədə dayanıqlı inkişafı təmin etdik, beynəlxalq aləmdə Azərbaycanı çox böyük nüfuza və hörmətə malik olan ölkəyə çevirdik və əsas məsələmizi – ərazi bütövlüyümüzü təmin etdik".

Şanlı qələbəmizə aparan yolda siyasi həmrəylik nümayiş etdirən iqtidar-müxalifət münasibətləri artıq yeni mərhələyə qədəm qoyub. Bir vaxtlar hakimiyyətə qarşı daim müxalifətdə olan siyasi partiya rəhbərlərindən biri belə bəyanat verdi: "Artıq bizim istədiyimiz zaman yetişdi. Azərbaycan bütün sahələr üzrə inkişaf etmiş dövlətlər sırasına qoşulub. Qəhrəman ordumuz torpaqlarımızı işğal edən Ermənistanı diz çökdürdü və ərazi bütövlüyümüzü bərpa etdi. Hazırda Qarabağda genişmiqyaslı abadlıq-quruculuq işləri davam edir. Pandemiyanın tüğyan etdiyi vaxtlarda Azərbaycan bu kabusa qarşı mübarizədə dünyaya nümunə göstərdi və əhalinin sağlamlığının qorunmasını hər şeydən üstün tutdu. Hətta, digər ölkələrə də yardım etdi. Artıq Azərbaycan dünyada qalib ölkə kimi qəbul edilir. Daha bundan sonra müxalifətçiliyə son qoyub bir olmalı və əl-ələ verib Qarabağı birlikdə bərpa etməliyik. Bizim müxalifətçiliyimiz bura qədər idi".

Mövqeyindən və fəaliyyətindən asılı olmayaraq, ölkədə fəaliyyət göstərən siyasi partiyalara daha əlverişli imkan yaradılması, fəaliyyət imkanlarının genişləndirilməsi məqsədilə aparılan islahatlar öz bəhrəsini verdi. Siyasi partiyaların dövlət mülkiyyətində olan qeyri-yaşayış sahələri hesabına qərargahla təmin olunması, siyasi dialoq mühitinə daha əlverişli şəraitin yaradılması dövlət başçımızın siyasi təşkilatlara bərabər münasibətindən irəli gəlir. Təbii ki, bütün bunlar siyasi partiyalar və təşkilatlar arasındakı münasibətlərin inkişafında yeni bir mərhələnin başlanğıcını qoydu.

Xüsusilə qeyd etmək istərdim ki, ölkədə yaradılmış siyasi dialoq mühiti nəticəsində cəmiyyətdə yeni yanaşma müşahidə olunmaqdadır. Mövqeyindən asılı olmayaraq, partiya liderlərinin müstəqil fəaliyyəti, ictimaiyyət nümayəndələri ilə təmas qurmaları, müxtəlif mətbuat orqanlarında və televiziya kanallarında çıxış etmək üçün dəvət olunmaları yeni reallıqlardan xəbər verir. Bu, həm də dövlət başçımızın demokratik prinsiplərin inkişafına verdiyi önəmin, "Mən hər bir azərbaycanlının Prezidenti olacağam!" kəlamının bariz nümunəsidir.

Ötən il sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı müharibəyə başlaması bu həmrəyliyi daha da gücləndirdi. Xalqın, eləcə də, ölkədə fəaliyyət göstərən siyasi təşkilatların Prezidentə olan inam və etimadından yaranan siyasi həmrəylik və milli birlik Azərbaycanda siyasi sistemi getdikcə möhkəmləndirdi və bu istiqamətdə əməkdaşlığı sağlam zəmində gücləndirdi. Prezident İlham Əliyevin siyasi iradəsi, partiyalar və siyasi təşkilatlar arasında həmrəyliyin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması üçün yaradılan əlverişli şərait iqtidar-müxalifət münasibətlərində yeni yanaşmanın əsasını qoydu. Həmçinin bir sıra partiyaların dövlət qeydiyyatına alınması, qərargahla təmin olunması ölkənin siyasi sisteminin formalaşdırılmasına təkan verdi. Bunun nəticəsi olaraq, hər kəs dövlət başçımızın ətrafında sıx birləşərək torpaqlarımızın düşməndən azad edilməsi uğrunda birgə mübarizə apardı, həm də milli maraqlarımızın qorunması, dövlətimizin və dövlətçiliyimizin inkişafı və torpaqlarımızın işğaldan azad edilməsi kimi məsələlərdə milli həmrəyliyin tərəfdarı kimi çıxış etdi.

İstər Vətən müharibəsi ərəfəsində, istərsə də müharibə dövründə xalqın "dəmir yumruq" ətrafında sıx birləşməsi sübut etdi ki, "Biz birlikdə güclüyük!". Xalqımız bu birliyin yeni çalarlarını Vətən müharibəsi başlananda da gördü. Ölkədə fəaliyyət göstərən 52 siyasi partiyadan 50-si Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatını pisləyən birgə bəyanat imzalayaraq, Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdiyini bildirdi. Bəyanatda, eyni zamanda, Azərbaycanda xalqla hökumətin həmrəyliyinə də toxunulur, həmçinin beynəlxalq hüququn aliliyinin bərqərar olunması tələb edilirdi. Ermənistanın 30 ilə yaxın bir müddət BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymadığını xatırladan siyasi partiyaların rəhbərləri Azərbaycana qarşı tətbiq olunan ikili standartlara son qoyulmasını tələb edirdilər. Bu, siyasi birliyin növbəti təcəssümü idi.

İkinci Qarabağ müharibəsinin tarixi qələbəmizlə başa çatması Azərbaycanın dünya birliyindəki reytinqini daha da artırdı. Bu qələbə həm regionda, həm də ölkəmizdə yeni siyasi reallıqlar yaratdı. Qarşıya qoyulan prioritet vəzifələrin yerinə yetirilməsində iqtidar–xalq–ordu həmrəyliyi, milli birlik fundamental amillərdən biri oldu. Siyasi qüvvələrin davamlı formada əməkdaşlığı, iqtidar - müxalifət arasında sağlam dialoq mühiti artdıqca, cəmiyyətdə, eləcə də, siyasi platformada sıx birliyin şahidi oluruq. Azərbaycan ardıcıl və məqsədyönlü siyasət sayəsində bu kimi problemlərdən yan keçməyi bacaran ölkələr sırasında, həm də qalib ölkə kimi yer alır.

Azərbaycan xalqı 30 ildən bəri gözlədiyi şanlı qələbənin sevincini yaşayır. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 30 illik işğala son qoyaraq torpaqlarımızı azad etməsi dövlətçilik tariximizi qürurlandırdı. İndi fəxrlə deyirik ki, biz qalib Azərbaycanın vətəndaşıyıq. Haqq-ədalət uğrunda apardığımız davamızın nəticəsi olan tarixi qələbəmiz xalqımızı daha da bütövləşdirdi, siyasi həmrəyliyimizi, milli birliyimizi gücləndirdi.

Hazırda işğaldan azad edilmiş ərazilərdə yenidənqurma, abadlıq, bərpa işləri geniş vüsət alıb. Bu gün dünyanın nəzərdiqqəti yenidən qurulan Qarabağa dikilib. Prezident İlham Əliyevin təşəbbüsü ilə respublikamızda fəaliyyət göstərən siyasi partiya rəhbərlərinin, habelə tanınmış politoloq və siyasi şərhçilərin işğaldan azad olunmuş ərazilərimizə səfərləri də siyasi həmrəyliyin təcəssümü kimi dəyərləndirilməlidir. Siyasi dialoq çərçivəsində təşkil olunan belə səfərlər ölkəmizlə bağlı həqiqətlərin təbliğində, habelə davam edən informasiya müharibəsində çevik və adekvat tədbirlərin görülməsinə zəmin yaradır. Siyasi partiyaların həmrəyliyi həm də xalqın birliyi deməkdir.

Gündən-günə möhkəmləndirilən milli həmrəylik Azərbaycanda həyata keçirilən dövlət siyasətinin strateji prioritetini təşkil edir. Bu birlik Vətən müharibəsi dövründə cəbhədə düşmənə qarşı amansız mübarizə aparan hərbçilərimizə stimul verdi. Onlar yaxşı bilirdilər ki, arxalarında möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan və monolit birliyi olan xalq dayanıb. Bu, Azərbaycan əsgərinin daha mübariz olmasını şərtləndirdi. O cümlədən, bu birlik və həmrəylik Azərbaycana qarşı ikili standartlardan çıxış edən bəzi xarici qüvvələrə də layiqli cavab oldu.



Hər bir siyasi partiya rəhbəri dərk etməlidir ki, hakimiyyət uğrunda yalnız sivil mübarizə ortaya qoyulmalıdır. Bu gün siyasi partiyaların ölkəmizə qarşı qərəzli mövqedən çıxış edən ermənipərəst qüvvələrə və hələ də ikili standartlar mərəzindən əl çəkə bilməyən dövlətlərə, beynəlxalq təşkilatlara layiqli cavablar verməleri milli həmrəylik zəferidir. Ən önəmlisi isə Azərbaycan cəmiyyəti tarixdən dərs götürməyi bacardı. İkinci Qarabağ döyüşləri zamanı bundan əvvəlki müharibədəki parçalanmaları yaşamadıq. Hər kəs Prezidentin "dəmir yumruğunun" ətrafında sıx birləşdi. Bu birlik düşmənlərimizin də diqqətindən yayınmamışdı. Çünki müharibə dövründə erməni mətbuatı mütəmadi olaraq öz xalqına Azərbaycandakı milli birlikdən nümunələr gətirirdi. Bu möhtəşəm həmrəyliyin əldə olunmasının əsas səbəblərindən biri xalqın ölkəmizin liderinə inam və etimadı oldu.

**_Əliqismət BƏDƏLOV,_**
**_"Xalq qəzeti"_**